**Fondun vəsaitlərinin istifadəsi istiqamətləri:**

- Aqroparkların yaradılması;
- Ətlik və südlük istiqamətli cins iri buynuzlu heyvandarlıq komplekslərinin yaradılması;
- Logistik (qida və qeyri-qida məhsullarının saxlanması, daşınması və satışı ) və yaşıl market (fermer mağazalarının) mərkəzlərinin yaradılması;
- Ət kəsimi və ət emalı müəssisələrinin yaradılması;
- Meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin yaradılması;
- İri fermer təsərrüfatlarının yaradılması;
- Müasir qarışıq yem istehsalı fabriklərinin yaradılması;
- Müasir istixana komplekslərinin yaradılması;
- İntensiv bağçılıq (üzüm, alma, nar və.s) və ya tingçilik təsərrüfatlarının yaradılması;
- Müasir çörək istehsalı müəssisələrinin yaradılması;
- Digər sənaye (yüngül, tikinti, kimya və s.) müəssisələrin yaradılması;
- Kiçik sahibkarlığın (o cümlədən gənclərin, qadınların və məcburi köçkünlərin) inkişafı.

**Sahibkarlıq subyektlərinə Fondun vəsaitlərindən aşağıdakı hədlərdə güzəştli kredit vəsaiti verilə bilər:**

5 000 manatdan - 50 000 manatadək - kiçik həcmli kreditlər;
50 001 manatdan - 500 000 manatadək - orta həcmli kreditlər;
500 001 manatdan - 10 000 000 manatadək - böyük həcmli kreditlər

**Kreditin müddəti:**

kiçik həcmli kreditlər üçün - 3 ilədək;
orta həcmli kreditlər üçün - 5 ilədək;
böyük həcmli kreditlər üçün - 10 ilədək.

Faiz dərəcəsi - 6%.
Kütləvi informasiya vasitələrinin inkişafı layihələrinin maliyyələşdirilməsi üçün – 4%

Güzəşt müddəti - kredit müddətinin yarısı qədər verilə bilər.

Maliyyələşdirilmə AZN ilə aparılır